*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* ELMİ ƏSƏRLƏRİ № 25, 2018
УЧЁНЫЕ ЗАПИСКИ*Азербайджанского Государственного Университета Культуры и Искусств* № 25, 2018
SCIENTIFIC NEWS *of Azerbaijan State University of Art and Culture* № 25, 2018

**UOT 008:14**

***Aida Abdullayeva***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:*** adra.**akademiya**@gmail.com

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

**Xülasə:** Heydər Əliyevin nəzəri-praktik irsində ədəbiyyata münasibət xüsusi yer tutur. O, cəmiyyətin mənəvi cəhətdən təkmilləşməsi üçün ədəbiyyatı mükəmməl ideoloji baza hesab edir. Onun üçün ədəbiyyat yalnız nəsillərin mənəvi varisliyini təmin edən sənət sahəsi olmayıb , həm də toplum şüurunu yabançı və zərərli təsirlərdən qoruma vasitəsidir. “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı” adlı bu məqalədə Ulu Öndərin milli söz sənətinə konseptual baxışı, milli ruhun formalaşması və qorunmasında onun roluna verdiyi dəyər nəzərdən keçirilir, bütövlükdə çıxışlarında tezislər şəklində formulə olunmuş ədəbiyyat konsepsiyasının icmalına cəhd edilir.

**Açar sözlər:** Ümumilli Lider, milli ədəbiyyat, milli kimlik şüuru, bədii söz, ədəbi polemika.

Hər bir xalqın tarixi kontekstdə böyük uğurları, qələbələri, habelə məhrumiyyət və əzabları onun mənəvi yaddaşında heykəlləşir və tədricən xalqın özünün sevdiyi obrazların simasında əsatir, mif, dastan və s. ədəbi şəkillərdə söz donuna girir və yeni nəsillərə ərməğan olaraq, onların mənəvi dünyasını cilalayır və qidalandırır. Bu mənada, söz sənəti xalqın tarixi ovqatını əsrlərlə özündə daşıyan, milli varlığını hifz edən, tarixi yaddaşını qoruyan bir sənət sahəsidir. XX əsrdə biz bir millət olaraq milli ədəbiyyatımızın ağır və faciəli dövrünü praktik şəkildə yaşadıq. Bu əsr boyunca Azərbaycan ədəbiyyatının keçdiyi yol söz sənətinin ideoloji-siyasi gücünün nə qədər böyük olduğunun təsdiqi və göstəricisidir. Bu böyük həqiqəti anlayan, dərk edən sovet imperiya şüurunun ideoloqları onun mənəvi dayaqlarını möhkəmlətmək üçün milli düşüncələrin, milli özünüdərkin məhvinə çalışmış, bunun üçün saxta sovet insanı obrazı yaratmağa və ictimai şüurun sosial-mənəvi stereotipinə çevirməyə səy göstərmişlər. Bu barbar ideoloji xəttin qarşısında daha mətanətlə dura biləcək qüvvə isə yalnız milli ədəbiyyat cəbhəsi ola bilərdi. Buna görə sovet imperiya maşını öz ilk total hücumunu məhz milli ədəbiyyata yönəltdi. 37, 38-ci illərin amansız repressiyası bu siyasi kursun, demək olar ki, pik həddi, habelə böhran dönəminin başlanğıcı idi.

Repressiyanın amansız zərbəsindən sonra milli ədəbiyyatımız XX əsrin 60-cı illərindən sonra sanki bir növ reabilitasiyaolunma mərhələsinə qədəm qoydu. Çünki milli ədəbiyyat özünün lokal coğrafiyasında, milli-mənəvi lokal mühitində özü üçün siyasi dəstək, siyasi söykənəcək təmin etməmişdi. 60-cı illərin sonunda Ümummilli Liderimiz Heydər Əliyevin Respublika rəhbərliyinə gəlişi bu məsələlərin həllinə start verdi. Heydər Əliyevin praktik-nəzəri irsinin bütün aspektlərdən tədqiqi və təhlili göstərir ki, Ulu Öndər bu məsul tarixi vəzifəyə gəldiyi zaman cəmiyyətin bütün sahələri ilə bağlı - istər təsərrüfat, istər elm, istərsə sənət sahələri olsun - milli xarakterli kamil bir fəaliyyət konsepsiyasına malik idi. Bu dəsti-xətt onun siyasi hakimiyyətinin ilk illərindən özünü çox aydın şəkildə göstərməyə başladı.

Mədəni-mənəvi və ictimai-sosial planda Azərbaycan ədəbiyyatı öz sənət missiyasını tarixin bütün mərhələlərində uğurla daşımışdı. Hətta, milli varlığımızın həlledici tarixi məqamlarında bu sənət sahəsi cəmiyyətin siyasi-ideoloji yükünü də öz üzərinə götürmüş, ictimai şüurun milli-siyasi ideyalarla silahlanmasında xüsusi rol oynamış, dövlətçilik məfkurəsinin ideoloji lokomotivinə çevrilmişdi. Biz diqqətlə nəzər yetirsək, bütün tarix boyu bir dialektik paralelliyi müşahidə edə bilərik: bu qanun milli ədəbiyyat və milli kimlik düşüncəsinin, habelə milli dövlətçilik şüurunun dialektikasında özünü daha qabarıq şəkildə göstərir.

Bu paralellik 60-cı illərdən sonrakı ədəbiyyatda daha aydın müşahidə olunur. Həmin dönəmdə artıq ictimai şüurda ümumsovet kimliyindən ümumazərbaycan kimliyinə keçid prosesi özünü göstərir. Bu tendensiya, təbii ki, bütün dövrlərdə olduğu kimi, ilk dəfə özünü ədəbiyyatda göstərməyə başlayır və bu dönəmdə azərbaycanlı milli özünüdərk şüuru sovet düşüncəsinə qarşı dirçəlmə prosesini yaşayırdı. Bu zaman milli ədəbiyyatda cücərən milli-ideoloji rüşeymlər mərkəzi narahat etməyə bilməzdi. Lakin qələm və sənət əhlinin şəhadətinə görə həmin dövrdə sanki sehrli bir əl milli ədəbiyyatı himayə edir və onu hiss olunmadan qoruyurdu. Biz bu faktı, bu gerçəyi günümüzdən baxdıqda daha aydın görürük, çünki dağın əzəməti ondan uzaqlaşdıqca daha aydın görünür. Artıq üstündən illər keçdikdən sonra bu sehrli əlin sahibi bəlli olur: bu, ümummilli lider Heydər Əliyev idi.

Heydər Əliyevin sənətlə bağlı həyat konsepsiyasında əslində sənətin özünün müdafiəsi və hifz olunması prioritet məsələ kimi dayanır. "Dədə Qorqud"dan Hüseyn Cavidə qədər uzanan ədəbi pleyadanı xalqın milli xəzinəsinin incisi kimi yenidən ictimai şüura hədiyyə eləmək onun böyük xalq və Vətən sevgisindən qaynaqlanırdı. O, bu azman ədəbi pleyadanın sənət ruhunu var gücü ilə Ulu Azərbaycan torpağında - Müqəddəs Yurdda ucaltmaq üçün yorulmadan çalışırdı. Bununla o sanki varlığında daşıdığı hansısa bir fövqəlgücə hesabat verirdi. Bu fövqəlgüc ona Yurdun bağrından ərməğan edilmiş intəhasız, sınırsız Vətən və Xalq sevgisi idi. Bu sevgi ilə bərabər onun ruhunda azman bir nisgil də qövr edirdi: bu, Hüseyn Cavid yarası idi. İllər idi ki bu yaranı sağaltmaq üçün o imkan və fürsət arayırdı və nəhayət, 1982-ci ildə Ulu Öndər bu nisgilə son qoydu - Cavidin nəşini uzaq Sibirdən gətirərək Naxçıvanda əbədiyyətə qovuşdurdu. Bu hadisəni Heydər

Əliyev belə xatırlayırdı: «Böyük filosof-şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi. İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır.»(7,13)

Heydər Əliyevin ədəbiyyatla bağlı müxtəlif tədbirlərdə elədiyi məruzə və çıxışlarında yer alan tezislər, əslində onun ədəbiyyat haqqında konsepsiyasının bütöv bir sistemini ortaya qoyur. Bu tezislərin bir qismi ədəbiyyatın həyati əhəmiyyətini, onun ideoloji, sosial-ictimai missiyasını özündə ehtiva eləyən bir sənət düsturudur. Bu böyük zəka sahibi ədəbiyyatın təsir gücündən danışarkən, təbii ki, onun ideoloji potensialını, gücünü xüsusi olaraq nəzərə alırdı. O bu həqiqəti öz praktikasına əsaslanaraq belə izah edir: "...Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur"(4).

70-ci illər artıq milli özünüdərk şüurunun yeni çalxalanma və yeni vüsət aldığı bir dönəm idi. Bu dönəmdə ümumsovet ideologiyası ilə uzlaşmayan milli ideyalar ədəbiyyatımızda bir kəsim söz əhlinin yaradıcılığının leytmotivinə çevrilmişdi. Bu ədəbi düşərgədə öz poeziyasının və həm də xarakterinin çılğınlığı ilə seçilən ədiblərimizdən biri də Xəlil Rza Ulutürk idi. Siyasətin məramını ədəbiyyatda dilə gətirməsi bir tezis olaraq, əslində Heydər Əliyevin sənət məclislərindəki çıxışlarında şüuraltı olaraq, zahirən sezilmədən, çox məharətlə ədəbi mühitə ötürülürdü. Bu, Heydər Əliyev siyasətinin, müəyyən mənada, ədəbiyyatda davamı idi. Ona görə də xalqımızın bu fədakar oğlu hər dəfə sənət insanlarını Mərkəzin təqib və təzyiqlərindən qorumaq zərurəti ilə üz-üzə qalırdı. Biz böyük istiqlal şairimiz Xəlil Rza Ulutürkün ölümündən sonra onun həyat yoldaşı Firəngiz xanımın dilindən eşidirik: "80-ci illərdə Xəlil Rzaya millətçi damğası vurmaq istəyirdilər. Heydər Əliyev o zamanlar Moskvada çalışırdı. Telefon söhbətində Xəlil ona bu barədə dedi. Cavabında Heydər Əliyev ona "sən millətçi şair deyilsən, sən xalqın şairisən. Heç kəs sənə mane ola bilməz" dedi. Xəlil bu söhbətdən sonra "elə bildim, arxamda bir dağ var" – deyə fərəhləndi.(8)

Ümumiyyətlə, dil onu yaradan və daşıyan xalqın mənəvi diriliyidir. Hər hansı millətin, etnosun varlığı onun mənəvi parametrləri ilə müəyyən olunur. Bəllidir ki, milli dilin olmadığı mühitdə milli özünüdərk faktından danışmaq absurddur. Çünki milli özünüdərkin rüşeymini öz bətnində daşıyan məhz milli dildir. Bütövlükdə sözün və onun dildə təcəssüm olunan gücünü çox gözəl bilən Ulu Öndərimiz Heydər Əliyev milli özünüdərk uğrunda aparılan mübarizə marafonunda millətin önə çıxması üçün milli dilin və ədəbiyyatın keşiyində duran elm və sənət insanlarına dövlətin maddi və mənəvi qayğısını əsirgəmirdi. Bu baxımdan onun Azərbaycan dilçilik elminin bütün struktur bölmələrini elmi əsaslarla yenidən işləmiş dilçi alimlərimizi mükafatlandırması diqqətəlayiqdir. "Keçən əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycanın bir qrup tanınmış dilçi alimlərini - Muxtar Hüseynzadəni, Əlövsət Abdullayevi, Yusif Seyidovu, Ağaməli Həsənovu çoxcildlik Müasir Azərbaycan dili dərsliyinə görə respublikanın Dövlət mükafatı

ilə təltif etməsi də elmi-ictimai və ədəbi-mədəni mühitdə ana dilinin mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edirdi.”(4)

Vətən və millət bütövlüyü ideyası II Dünya savaşından sonra milli folklordan yazılı ədəbiyyata transfer olunmağa başlamışdı. Xalqımızın ayrılıq həsrətinin ədəbi simvoluna çevrilmiş “Araz”, “Xudafərin”, “Təbriz” kimi obrazları ictimai düşüncəyə Vətən-Xalq birliyi ideyalarını çatdırmaq üçün ədiblərimiz böyük ustalıqla bədii vasitəyə çevirirdilər. Həmin dövrlərdə Bəxtiyar Vahabzadənin bu ideyanı özündə daha mükəmməl ehtiva edən “Gülüstan” poemasının imperiyanın yuxarı eşalonunda ciddi əks-səda yaratması və ədəbi hadisəyə çevrilməsi ədəbi ictimaiyyətə yaxşı bəllidir. Bu hadisədən sonra müəllifə yönəlmiş təqib və təzyiqlər məhz Heydər Əliyev faktoru ilə neytrallaşdırıldı.

Biz bu ideoloji tendensiyanı yalnız ədəbiyyatda yox, artıq Azərbaycanın siyasi rəhbərliyində, konkret olaraq Heydər Əliyevin ədəbiyyat siyasətində yeni strateji modelin təzahürü kimi müşahidə etdik. Bu baxımdan onun 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı Cənub ədəbiyyatı ilə bağlı nitqi bir çox vacib mətləblərə işıq salır: “Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır”.(4) Azərbaycan Yazıçılar Birliyində və Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbələrinin yaradılması, habelə çoxcildlik Cənubi Azərbaycan ədəbiyyatı antologiyasının hazırlanıb nəşr edilməsi Heydər Əliyev fenomeni ilə bağlıdır.

Bəxtiyar Vahabzadədən söz düşmüşkən, Heydər-Bəxtiyar tandemini Ümummilli Liderin ədəbiyyatla bağlı konseptual baxışlarına işıq salmaq üçün xüsusi vurğulamaq olar. Biz, çox hallarda B.Vahabzadənin ədəbiyyatda təcəssüm olunan millətçilik və dövlətçilik haqqında düşüncələrinin Heydər Əliyev siyasətində gerçək təcəssümünü müşahidə edirik. Bu iki şəxsin hər bir polemika və dialoqu bir çox aktual suallara qlobal miqyasda baxmağa imkan verir. Bu baxımdan, B.Vahabzadə xəstəxanada müalicə alarkən onu ziyarət edən Ulu Öndərlə polemikası da xarakterikdir.

**Heydər Əliyev: -** Ümumiyyətlə, ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir. Məsələn, Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Cavid də, Rəsul Rza da, Səməd Vurğun da, Cəlil Məmmədquluzadə də, Sabir də, Süleyman Rüstəm də belədir. Bu gün bizim dövrümüzdə yaşayanlardan söhbət açsaq, Bəxtiyar Vahabzadə də belədir. İkinci bir Bəxtiyar Vahabzadə yoxdur...

**Bəxtiyar Vahabzadə: -** Cənab Prezident, indi cavanlarımız yetişir. Bizə tamamilə bənzəməyən, yaxın gəlməyən, təzə bir yolla gedən cavan şairlərimiz yetişirlər. Üzr istəyirəm, mənim tamam başqa bir yolum var.
**Heydər Əliyev: -** Bilirsiniz, bəzən mən çox görkəmli şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, müğənnilərimiz haqqında düşünəndə deyirdim ki, görəsən bu gedəndən sonra onu kim əvəz edəcək? Amma sonra fikirləşib gördüm ki, yer boş qalmır. Gedən gedir, amma yenisi də başqa ruhda yaranır. Bəlkə də Bülbül kimisi olmayacaq, amma Bülbülün yerini verənlər olacaq.(1)

Ədəbiyyata və sənətə bu yanaşmada və baxışda mükəmməl bir dialektik təfəkkürün varlığı özünü çox aydın göstərir; hər bir dövrün və mühitin öz sənət ölçüsü və öz sənət zövqünün olması qanunauyğun haldır, əks halda hər hansı inkişafdan danımağın özü də çox paradoksal görünərdi. Yalnız bu müddəanın özü sənətə dialektik baxış metodologiyasının baza prinsipi deyilmi? Bir xalqın siyasi iradəsini təmsil etmək haqqını qazanmış şəxsin əsrlərin mütərəqqi ruhunu özündə ehtiva edən dünyagörüşünə sahib olması, onu praktikada reallaşdırması, inanıram ki, həmin xalqın, həmin millətin ən böyük xoşbəxtliklərindən biri, həm də birincisidir.

Heydər Əliyev fenomeni yalnız əsrlərin deyil, həm də minilliklərin qovuşuğunda Tanrının bütöv Azərbaycan dünyasına sevərək bəxş etdiyi əbədi bir xəzinədir. Bu xəzinə o qədər zəngindir ki, ondan zaman-zaman bütün nəsillər pay götürəcək. Lakin bu xəzinənin sehri ondadır ki, pay götürdükcə onun inciləri azalmır, əksinə, artmaqda davam edir. Bu müqəddəs istəklə biz də bu xəzinədən pay götürməyə çalışdıq, könül heybəmizə düşən inci nədirsə, qismətimizdi.

## Ədəbiyyat:

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar) Azərnəşr. Bakı: 1998, səh.331-341
2. Sadıqlı A.Ə. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı: "Mütərcim" nəşriyyatı, 2011, səh. 180
3. Ramiz Mehdiyev. Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan Ümummilli Lider Heydər Əliyevin qadir siyasətidir. 2003-cü il *13 iyun.* http://www.azerbaijan-news.az/
4. İsa Həbibbəyli.Hedər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr. // "Xalq Qəzeti". 19 iyun 2013-cü il.
5. Timuçin Əfəndiyev. Heydər Əliyevin ədəbi siyasəti // "525-ci qəzet", 2010-cu il, 18 may, səh.4
6. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2009
7. Gülbəniz Babaxanlı. "Heydər Əliyev və Hüseyn Cavid". Bakı: Proqress, 2013, səh. 160

8. http://axar.az // "Xəlil Rza bu barədə Heydər Əliyevə dedi…"

**Аида Абдуллаева**

## Гейдар Алиев и литература Азербайджана

### Резюме

В богатом наследии Гейдара Алиева особое место занимает отношение к литературе. Г.Алиев в литературе видел богатую идеологическую основу для нравственного совершенствование общества. Для него литература являлась не только сферой искусства, которая обеспечивает морально-духовную преемственность между поколениями. Она также являлось и тем средством, которая оберегает сознание общества от чужеродных и негативных воздействий.

**Ключевые слова:** общенациональный Лидер, национальная литература, сознание национальной идентификации, художественное слово, литературная полемика.

**Aida Abdullayeva**

## Heydar Aliyev and Azerbaijani Literature

### Summary

In the theoretical and practical inheritance of Heydar Aliyev, the attitude to literature takes a special place.He saw in literature a rich ideological basis for the moral improvement of society.For him, literature is not only a sphere of art that provides moral and spiritual continuity between generations, it is also a means that protects the consciousness of society from alien and harmful influences.The article examines his conceptual view on the art of speech and its importance in the formation of the national spirit and its protection as assessed by the Great Leader. In general, he tries to give a review of his literary concept, which is formulated by his various speeches in the form of a thesis.

**Keywords:** Nationwide Leader, national literature, the consciousness of national identity, artistic word, literary polemics.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 20.02.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.02.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 06.03. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**